# Heydər Əliyev adına Hərbi İnstitutda elmi-praktik konfrans keçirilib



Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunmuş "Azərbaycan Respublikasının inkişaf strategiyası, potensial imkanlar və yeni çağırışlar" respublika elmi-praktik konfransı keçirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Hərbi İnstitutun ərazisindəki abidəsi önünə gül dəstələri düzülərək xatirəsinə ehtiram nümayiş etdirilib.

Sonra "Heydər Əliyev və Azərbaycan Respublikasının inkişaf strategiyası"na həsr edilmiş film təqdim olunub.

Heydər Əliyev adına Hərbi İnstitutun rektoru Ümüdvar Quliyev konfransın əhəmiyyətindən danışıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov, Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov və Heydər Əliyev adına Hərbi İnstitutun Elmi-tədqiqat şöbəsinin professoru Ramid Hüseynov çıxış edərək Heydər Əliyev və Azərbaycanın inkişaf strategiyası, mövcud imkanlar və qarşıda duran vəzifələr, çağırışlar barəsində danışıblar.

Konfrans işini plenar iclasla davam etdirib.

Azərbaycan. - 2025.- 4 may (№90).- S.10.